Xalq qəzeti .- 2023.- 25 fevral.- S.4.

# Xocalı faciəsi barədə ilk geniş müzakirə

## *Ulu öndərin tövsiyəsi ilə çağırılan sessiyada bu qanlı cinayət soyqırımı adlandırılıb*

**Müstəqilliyin ilk illərində "ölkəyə rəhbərlik edən" siyasətçilər 20 Yanvar faciəsi kimi Xocalı qətliamına da siyasi-hüquqi qiymət verilməsi istiqamətində heç bir addım atmamışdılar. Bu cinayətlərin hər ikisi ümummilli liderin ölkədə siyasi hakimiyyətə qayıdışından sonra öz həqiqi adı ilə çağırılmışdı. Belə ki, 1994-cü il fevralın 14-də ulu öndər Heydər Əliyevin tapşırığı ilə parlamentin xüsusi sessiyası keçirilmiş, erməni təcavüzkarları tərəfindən törədilmiş Xocalı soyqırımı barədə geniş müzakirələr aparılmışdır.**



"Qaçqınlar və xaricdə yaşayan soydaşlarla əlaqə" komissiyasının təklifinin müzakirəsindən sonra qəbul edilən xüsusi qərarda deyilirdi ki, Ermənistan rəhbərliyinin 1992-ci il fevralın 26-da törətdiyi, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı respublikamızda "Xocalı Soyqırımı Günü" elan olunsun və bu barədə beynəlxalq təşkilatlara məlumat verilsin.

Deputatlar çoxsaylı fakt və dəlillərə əsaslanaraq, sübut edirdilər ki, bu fakt soyqırımıdır. Ona görə də həmin sessiyada Xocalı hadisələri barəsində həqiqətin dünya xalqlarına çatdırılması və Xocalı Soyqırımı Gününün beynəlxalq miqyasda keçirilməsi üçün dünya azərbaycanlılarına müraciət edilmişdi.

Müraciətdə deyilirdi: "Müqəddəs Vətənimiz olan Azərbaycan torpaqlarında – müstəqil Azərbaycan Respublikasının ərazisində 6 ildir ki, müharibə gedir. "Böyük Ermənistan" xülyası ilə erməni xalqının başını dumanlandırmış Ermənistan Respublikasının işğalçı hərbi qüvvələri müxtəlif ölkələrin irtica qüvvələri tərəfindən aşkar və gizli şəkildə dəstəklənərək ölkəmizin 12 rayonunu zəbt etmişdir. Düşmən kənd və şəhərlərimizi viran qoyur, ulu yurdlarımızda ağlasığmaz cinayətlər, bəşər tarixində bənzəri olmayan vəhşiliklər törədir. Xocalı soyqırımı bunun təkzibolunmaz sübutudur".

Müraciətdə faciənin tarixi, təfsilatı və qurbanları barədə ətraflı məlumat verildikdən sonra deyilir: "Bu il Xocalı faciəsinin ikinci ildönümü Azərbaycanda dövlət tədbiri səviyyəsində keçiriləcək və xalqımız tərəfindən hüznlə yad ediləcəkdir. Azərbaycan Respublikasının Milli Məclisi hər il fevralın 26-nı "Xocalı Soyqırımı Günü" elan etmək haqqında qərar qəbul etmişdir. Azərbaycan Respublikasının Milli Məclisi bütün dünya azərbaycanlılarına ünvanladığı bu müraciəti ilə ümumi Vətənimiz Azərbaycana bağlı olan hər bir soydaşımızı, yurddaşımızı və həmvətənimizi fevralın 26-nı "Xocalı Soyqırımı Günü" kimi keçirməyə çağırır.

Milli Məclis əmindir ki, bütün dünya azərbaycanlıları onun bu çağırışına qoşulacaq, ermənilərin törətdiyi təcavüzkar işğalçılıq müharibəsində xalqımızın başına gətirilən müsibətləri yaşadıqları ölkələrin ictimaiyyətinə çatdırmaq üçün imkanını əsirgəməyəcək və bununla da Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda mübarizəmizə qoşulacaqlar".

***İ. QAÇAYEV,***
***"Xalq qəzeti"***